# Dövlət uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət edir

## XƏYAL BƏŞİROV: "BOŞANMIŞ AİLƏLƏRDƏ UŞAQLARIN ÖLKƏDƏN ÇIXARILMASI İLƏ BAĞLI PROBLEMLƏR OLUR"

**Uşaq hüquqlarının müdafiəsi hazırda dünyada ən aktual məsələlərdən birinə çevrilib. Çünki müasir dünyada uşaqlar müxtəlif şəraitlərdə, yerlərdə fiziki, psixoloji və cinsi təzyiqlərə məruz qalır və hüquqları tapdalanır. Çox rastlaşdığımız hallardan biri isə uşağın evdə valideynləri tərəfindən təzyiqlərə məruz qalmasıdır. Bəs görəsən uşaqların hansı hüquqları var? Uşaqlar valideynlərini hansı halda və nə zaman məhkəməyə verə bilər? Uşaq öz valideynləri tərəfindən tərbiyə olunmaq, hərtərəfli inkişafı, onun ləyaqətinə hörmət olunması hüququna malikdir.**



### Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur

"Üç nöqtə"yə açıqlama verən Vəkillər Kollegiyasının (VK) üzvü Xəyal Bəşirov bildirdi ki, Azərbaycanda uşaq hüquqları beynəlxalq konvensiyalar, Ailə Məcəlləsi, "Uşaq hüquqları haqqında" Qanunla və digər normativ hüquqi aktlarla qorunur. Qanunvericiliyə görə, uşaq öz valideynləri tərəfindən tərbiyə olunmaq, hərtərəfli inkişafı, onun ləyaqətinə hörmət olunması hüququna malikdir. Bu, Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsində də öz əksini tapıb. Maddənin tələblərinə görə uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur: "Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. Hazırkı qanunvericiliyimizin məzmununa əsasən uşaqların bütün hüquqları qanunda öz əksini tapmışdır və qorunmaqdadır".

Vəkil deyir ki, Ailə Məcəlləsinə görə uşaq öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi hüququna malikdir: "Uşağın hüquqlarının və qanuni mənafelərinin müdafiəsi valideynlər və ya onları əvəz edən şəxslər, həmin məcəllə ilə nəzərdə tutulmuş hallarda isə müvafiq icra hakimiyyəti orqanı və məhkəmə tərəfindən həyata keçirilir. Qanunvericiliyə uyğun olaraq yetkinlik yaşına çatana qədər tam fəaliyyət qabiliyyətli hesab edilən şəxslər öz hüquq və vəzifələrini, o cümlədən müdafiə hüququnu müstəqil həyata keçirirlər. Uşağın valideynləri və ya onları əvəz edən şəxslər tərəfindən sui-istifadə etmə hallarından müdafiə olunmaq hüququ vardır".

### "Uşaq 14 yaşına çatdıqda valideynini məhkəməyə verə bilər"

X.Bəşirovun sözlərinə görə, uşağın hüquqları və qanuni mənafeləri pozulduqda, o cümlədən valideynləri uşağın təhsili, tərbiyəsi üzrə vəzifələrini yerinə yetirmədikdə və ya valideynlik hüquqlarından sui-istifadə etdikdə, uşaq öz hüquqlarını qorumaq üçün müvafiq icra hakimiyyəti orqanına, 14 yaşına çatdıqda isə məhkəməyə müraciət etmək hüququna malikdir: "Uşağın həyat və sağlamlığının təhlükədə olması, onun həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb olunması, hüquqlarının və qanuni mənafelərinin pozulması barədə məlumatı olan vəzifəli şəxslər və digər vətəndaşlar bu barədə uşağın faktiki olduğu yerin müvafiq icra hakimiyyəti orqanına məlumat verməyə borcludurlar. Müvafiq icra hakimiyyəti orqanı bu cür məlumat aldıqda uşağın hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün zəruri tədbirlər görməyə borcludur. Hər bir uşağın onun hüquq və mənafelərinə toxunan məsələlərlə bağlı öz fikrini bildirmək, ad, ata adı və soyad daşımaq, adını və soyadını dəyişmək, sağlam böyümək, təhsil almaq, əmlak və digər hüquqları vardır".

Vəkil qeyd etdi ki, Azərbaycan Respublikasında mövcud mənzərəyə nəzər yetirdikdə uşaqların hüquqlarının pozulması halları əsasən boşanmış ailələrdə baş verir və belə hallarda yetkinlik yaşına çatmayan uşaqlar hətta zorakılıqlarla qarşılaşırlar: "Bu cür zorakılıqlar həm valideynlər həm də digər şəxslərin müəllifliyi ilə baş verir. Boşanma zamanı və ya ailə münasibətləri korlandığından faktiki olaraq ayrı yaşayan valideynlər azyaşlı uşaqlarını bu və ya digər şəkildə özlərinin ambisiyalarının qurbanına çevirirlər. Bu səbəbdən də belə uşaqlar bir çox hallarda güclü psixoloji travma yaşayırlar ki, bu da onların gələcək həyatlarında özünün mənfi təsirini göstərməmiş olmur".

X.Bəşirov əlavə etdi ki, uşaqların aliment hüquqlarında da onlardan ayrı yaşayan valideynləri tərəfindən intensiv olaraq pozuntulara yol verilir: "Bu da maddi təminatlarının ödənilməsi ilə əlaqədar olaraq azyaşlıların təhsilinin, sağlamlıqlarının o cümlədən psixoloji inkişafının axsamasına səbəb olur".

### Boşanmış ailələrdə uşaqların ölkədən çıxarılması ilə bağlı problemlər olur

Bəzi hallarda boşanmış ailələrdə uşaqların ölkədən çıxarılması ilə bağlı valideynlər arasında narazılıqlar olur və bu səbəbdən də uşaqların istirahət, müalicə və ya təhsillə bağlı istədikləri vaxt ölkədən çıxmaq hüquqları tapdanır.

Vəkil onu da qeyd edir ki, valideynlərdən birinin razılığı olmadıqda, uşağın xarici ölkəyə aparılması barədə məhdudiyyətlər tətbiq olunur. Belə ki, qeyd edilən problem adətən boşanmış şəxslər arasında yaranır: "Ana uşağı xaricə aparmaq istəyir, ata isə buna razı olmur. Nəticədə isə uşaq ya səyahətindən qalır, ya idman yarışından və yaxud da, uşağın maraqlarına yönəlmiş digər tədbirlərdən qalır. Valideynlərdən biri, uşağın digər valideynlə xaricə getməsinə notarial qaydada təsdiqlənmiş razılıq verməsə, bu məsələ məhkəmə qaydasında öz həllini tapa bilər".

Miqrasiya Məcəlləsinin 11.2-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayan uşaq ölkədən valideynlərinin biri ilə getdikdə digər valideynin notariat qaydasında təsdiq edilmiş razılığı tələb olunur. Belə razılıq olmadığı halda, uşağın xaricə getməsi məsələsi məhkəmənin qərarı əsasında həll olunur. Məhkəməyə müraciət edərək, məhkəmədən uşağın xaricə aparılmasına razılığın verilməsini tələb edən valideyn bilməlidir ki, uşağın xaricə aparılmasını zəruri edən hallar əsaslandırılmalıdır. Uşağın xaricdə hansısa idman yarışında iştirak etməsi, müalicəyə getməsi və sair səbəblər olduğu halda, məhkəmə valideynlərdən birinin razılığı olmadığı halda da, uşağın xaricə aparılmasına icazə verə bilər.

Qanunvericilik uşaqların istirahət məqsədi ilə xaricə aparılmasına icazə verir. Xarici ölkəyə səyahət edərkən, uşaq ən azından inkişaf edir, əylənir, yeni ölkələr barədə əyani məlumatlar alır. Bunlar uşağa müsbət təsir edən faktorlardır. İstər Ailə məcəlləsi, istər Uşaq Hüquqları haqqında qanun, istərsə də, Uşaq Hüquqları haqqında beynəlxalq konvensiya tələb edir ki, bütün addımlar uşağın mənafeyi naminə atılmalıdır, uşağın inkişafına yönəlmlidir. Beynəlxalq konvensiyanın 3-cü maddəsinə əsasən, uşaqlar barəsində bütün tədbirlərdə əsas diqqət uşaq mənafelərinin daha yaxşı təmin edilməsinə yönəldilir.

Təbii ki, məhkəmələr bu mübahisələrə baxarkən, digər valideynin mənafeyini də nəzərə alır. Bu baxımdan da, məhkəmə hər iki tərəfin mülahizəsini və işin hallarını nəzərə alaraq yekun qərar qəbul edir.

### Valideynlərin nikahının pozulması uşağın hüquqlarına təsir etməməlidir

Hüquq məsləhətçisi Vasif Həsənov hər bir uşağın ailədə yaşamaq və tərbiyə almaq, öz valideynlərini tanımaq və onların qayğısından istifadə etmək, uşağın maraqlarına zidd olan hallar istisna olmaqla, onlarla birgə yaşamaq hüququna malik olduğunu deyir: "Bu, Ailə Məcəlləsinin 49-cu (uşağın ailədə yaşamaq və tərbiyə olunmaq hüququ) maddəsinin 2-ci bəndində öz əksini tapıb. Maddənin 3-cü bəndində isə qeyd olunur ki, uşaq öz valideynləri tərəfindən tərbiyə olunmaq, öz maraqlarının təmin olunması, hərtərəfli inkişafı, onun ləyaqətinə hörmət olunması hüququna malikdir".

V.Həsənov deyir ki, valideynlərinin nikahının pozulması, valideynlərinin ayrı yaşaması uşağın hüquqlarına təsir etməməlidir: "Valideynlər ayrı yaşadıqda uşaq onların hər biri ilə ünsiyyət hüququna malikdir. Ailə Məcəlləsinin 50-ci maddəsinin 1-ci bəndinə əsasən uşaq valideynləri, babaları, nənələri, qardaşları, bacıları və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququna malikdir. Hətta valideynlər müxtəlif dövlətlərdə yaşadıqda da uşaq öz valideynləri ilə ünsiyyətdə olmaq hüququna malikdir. Ümumiyyətlə, valideynlərinin nikahının pozulması və ya etibarsız sayılması, valideynlərinin ayrı yaşaması uşağın hüquqlarına təsir etmir və uşaq onların hər biri ilə ünsiyyət hüququna malikdir".

Hüquqşünasın sözlərinə görə, Ailə Məcəlləsində bu sahədə uşaqlara geniş hüquqlar verilib. Onun sözlərinə görə valideynlər müxtəlif dövlətlərdə yaşadıqda da uşaq öz valideynləri ilə ünsiyyətdə olmaq hüququna malikdir. Bundan başqa, uşaq ekstremal hallarda (tutulduqda, həbs olunduqda, saxlanıldıqda, müalicə müəssisəsində yerləşdirildikdə və s.) qanunvericiliklə müəyyən olunmuş qaydada öz valideynləri və qohumları ilə görüşə bilər.

### Bəzən uşaqlar ailədə müxtəlif məsələlərin müzakirəsindən kənar tutulur

Vəkil bildirib ki, uşağın valideynlər olmadıqda, onlar valideynlik hüquqlarından məhrum olunduqda və ya uşaq valideyn himayəsini itirdiyi digər hallarda, uşağın ailədə tərbiyəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təmin edilməlidir: "Uşağın hüquqlarının və qanuni mənafelərinin müdafiəsi valideynlər (onları əvəz edən şəxslər), müvafiq icra hakimiyyəti orqanı və məhkəmə tərəfindən həyata keçirilir. Bəzən uşaqlar ailədə müxtəlif məsələlərin müzakirəsindən kənar tutulur, onların həmin məsələ ilə bağlı fikirləri nəzərə alınmır. Qanunvericilik bu sahədə uşaqların mənafeyini müdafiə edir".

V. Həsənov qeyd etdi ki, uşaq ailədə onun maraqlarına toxunan istənilən məsələnin həlli zamanı öz fikrini bildirmək, habelə məhkəmə istintaqı və inzibati araşdırmaların gedişində dinlənilmək hüququna malikdir: "Onun maraqlarına zidd olan hallar istisna olunmaqla, 10 yaşına çatmış uşağın fikri mütləq nəzərə alınmalıdır. Bəzi hallarda məhkəmə və ya qəyyumluq və himayə orqanı yalnız 10 yaşına çatmış uşağın razılığı ilə qərar qəbul edə bilər".

Vəkil vurğuladı ki, uşağın ailədə hüquqlarından biri də onun ad, ata adı və soyad daşımaq hüququnun olmasıdır: "Vəkil deyir ki, uşağa ad valideynlərin razılığı ilə verilir. Soyad isə bir qayda olaraq, valideynlərin soyadı ilə müəyyən edilir. Uşağın valideynlərinin soyadları müxtəlif olduqda uşağa valideynlərin razılığı ilə atanın və ya ananın soyadı verilir. Müvafiq icra hakimiyyəti orqanı uşaq 18 yaşına çatana qədər onun adının dəyişdirilməsinə, eləcə də soyadının digər valideynin soyadına dəyişdirilməsinə, valideynlərin birgə xahişinə əsasən və uşağın mənafeyini nəzərə alaraq icazə verə bilər. 10 yaşına çatmış uşağın adı və soyadı yalnız onun razılığı ilə dəyişdirilə bilər".

Qanunvericiliyin uşaqların əmlak hüquqlarını müdafiə etdiyini deyən Həsənov bildirir ki, uşaq öz valideynlərindən və ailənin digər üzvlərindən vəsait almaq hüququna malikdir: "Uşaq gəlirinə, vərəsəlik və ya hədiyyə şəklində əldə etdiyi əmlaka, habelə uşağın vəsaiti hesabına əldə edilmiş digər əmlaka mülkiyyət hüququna malikdir".

Bunlar isə göstərir ki, uşaqların hüquqlarının qorunması prioritet sahədir və daima diqqət mərkəzindədir.

*Könül*